# XƏZRİ

*Cənubi azərbaycanlı qardaşıma*

Qardaşım, məmləkətimdə, Təbrizdə xəzri əsir.

Bağlar, xiyabanlar bomboş.

Budaqlar titrəyir, xəzəl tökülür.

Soyuq külək sümüklərimə işləyir, damarlarımda qanımı dondurur, nəfəsimi kəsir.

Qardaşım, bilirsənmi mən kiməm?.. Qulaq as...

Bir uşaqlığını xatirinə sal. Yadındadırmı, hər axşam nənən sənə nağıllar danışardı. Əfsanəvi və şirin nağıllar! Yadındadırmı?

Belə bir nağıl var. Bir igid şahzadəni namərd dostları qaranlıq dünyanın zülmətinə salırlar...

Şahzadə od püskürən səhralar keçir, qarlı dağlar, buzlu dərələr aşır, divlərlə, əjdahalarla çarpışır, Vətənini – işıqlı dünyanı axtarır. Şahzadənin ahı göylərə ucalır. Fəqət imdadına çatan olmur. Eh, onun bəlalı başına nələr gəlmir, onun bəlalı başı nələr çəkmir... Nəhayət, şahzadə nəhəng bir quşa rast gəlir. Quşun boynunu qucaqlayıb göz yaşları içində yalvarır ki, amanın bir günüdü, məni Vətənimə, işıqlı dünyaya, sevgilimin yanına çatdır. Quş razı olur, şahzadəni qanadlarına alıb deyir:

– Mən qa deyəndə ət verərsən, qu deyəndə su...

Bax, mənim əzizim, mən həmin o şahzadəyəm. İntəhası, nə dəmir libasım, nə polad qılıncım, nə də dağlar və dəryalar arxasında məni gözləyən dünya gözəli, sevgilim var. Bütün bunların əvəzində bir ürəyim var, bir də ki, iki gözüm. Özüm də anadan olduğum ölkənin, Vətənimin qəlbində yaşayıram.

Lakin dünyaya gəldiyim gündən o nəhəng quşun qanadındayam. Biz hey uçuruq, hey işıqlı dünya axtarırıq, qardaşım.

Ağzımı açıb Millət – deyə haray qoparıram, qışqırır. Qa!

Ağzımı açıb Azərbaycan – deyə inildəyirəm, qışqırır. Qu!

Daha məndə nə ət qalıb, nə də su!

Ürəyimi parça-parça ona yedirtmişəm!

Göz yaşlarımı ovuc-ovuc ona içirtmişəm!

Bax, mənim əzizim, mən həmin o şahzadəyəm. İntəhası nə dəmir libasım, nə polad qılıncım, nə də dağlar və dəryalar arxasında məni gözləyən dünya gözəli, sevgilim var. Bütün bunların əvəzində bir ürəyim var, bir də ki, iki gözüm. Özüm də anadan olduğum ölkənin, Vətənimin qəlbində yaşayıram.

Lakin dünyaya gəldiyim gündən o nəhəng quşun qanadlarındayam. Biz hey uçuruq, hey işıqlı dünya axtarırıq.

Qardaşım, məmləkətimdə, Təbrizdə xəzri əsir... Xəzri!

Eşidirsənmi?!

*Yalta, iyul, 1959-cu il*